# AĞACƏFƏR "ŞƏRHİN POETİK NOTLARI"NDA



**Şəddat CƏFƏROV**
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,
Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,
Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*(Əvvəli ötən sayımızda)*

Söz ədəbiyyatın baş mövzusu olub. Azərbaycan klassik ədəbiyyatının ən böyük memarları dövrün mənəvi abidəsini, öz zamanlarının ecazkar təbiətini və həm də sənətləri ilə, ecazkar yaradıcılıqları ilə öz heykəllərini də sözlə yaradıblar.

Nizami təsadüfi demirdi ki, köhnə qızılmı, təzə sözmü yaxşıdır? Söz sərrafı söylədi, söz dünyanın naxışıdır. Zamanlar keçir, Nizami hər dönəmdə yenidən öyrənildikcə yaratdığı sözün qüdrətini söz sərrafları təzədən məna müstəvisinə çəkir. Zamanına uyğun fikirlərin açımı ilə insanların daha sağlam həyat yaşamaları üçün ömürlərinə işıq salırlar.

Azərbaycan ədəbiyyatının Səməd Vurğun, Rəsul Rza, Məhəmmədhüseyn Şəhriyar... kimi böyük sənətkarları sözü vəsf etməkdən xüsusi mənəvi zövq alıblar. Müasir Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri kimi Ağacəfər Həsənli də sözə təkcə zinət verməklə öz borcunu bitmiş hesab etməyib. O, həm də sözün özünü vəsf edib. Sözü ali bir ruh kimi, gözəllər gözəli kimi qavrayıb və elə bu cür də dövrünün insanlarına çatdırmaq istəyib. Əsas odur ki, hər bir müəllif öz dövrünə münasibəti də sözlə bildirir. İstər razı olsun öz zamanından, istərsə də öz zamanından gileyli olsun, dəxli yoxdur, şair bütün hallarda sözlə işləyir. Dünyanın rənglərini də məhz sözlə çatdırır.

Əli Rza Xələflinin "Şərhin poetik notları" kitabında əsərləri təhlil edilən, yaradıcılıqlarının portret cizgiləri verilən müəlliflər sırasında Ağacəfər Həsənli haqqında ədəbi-tənqidi esse kitabda birinci yazı olmaqdan başqa, həm də şövqlə işlənməsinə görə, ilhamla yazılmasına görə də diqqəti cəlb edir. Axı Əli Rza Xələfli də söz aləmində kifayət qədər tanınan, sözün nəyə qadir olduğunu bilən şair-publisistdir. Onun Ağacəfər Həsənli haqqında yazdıqlarını oxuyanda mən, həm də dostumu bir ədəbiyyatşünas kimi, tənqidçi kimi də sanki yenidən kəşf etdim. Əvvəlcə Ağacəfər Həsənli haqqında yazılanlara xülasə şəklində münasibət bildirmək fikrində idim. Ancaq yazını oxuduqca hər bir abzasda söz bilən yazarın qəlbinin döyüntüsünü duyduqca özümdən asılı olmayaraq, yazıya bağlandım. Ağacəfər Həsənlinin də sözə sevgisi olmasaydı, o da sözü ilahi bir varlıq kimi tərənnüm edə bilməzdi. Ağacəfər Həsənlinin "Söz" şeirini oxuyuram:

Oğlumdan, nəvəmdən, qan qardaşımdan,
Mənə bir köynək də yaxınsan, Söz.
Qaçıram, çatıram yenə qarşımdan,
Əski sular kimi axırsan, Söz.
Mən - hər şey itirən, hər şey qazanan,
Gecələr gözlərim dönür qazana...
Düşüb üzü üstə yazı yazanam,
Sən elə uzaqdan baxırsan, Söz.
Öz ömür taxtımda kirənişinəm,
Yəqin Əzrayıl da vurub dişinə...
İndi iynə ilə bir gor eşənəm,
Gözümə gözlükdə taxırsan, Söz.
Məni böyrü üstə yıxan az idi,
Kölgəmi yandırıb-yaxan az idi?
Xaraba dünyada sıxan az idi -
Sən də bir tərəfdən sıxırsan, Söz.

Müəllifin burada "söz" rədifini böyük hərflə yazması təsadüfi deyil. Yəni onun düşüncəsinə görə söz ali bir varlıqdır. Canlıdır. Söz özünə hörmət tələb edir. Ona görə də sözü sanki müəllif biləkdən şəxsləndirir.

Əli Rza Xələfli Ağacəfər Həsənlinin sözə münasibətini maraqla incələyir. Xüsusi bir duyğu ilə şairin söz haqqında dediklərinin məna qatlarına varmağa çalışır: *"A.Həsənli sözə sitayiş edəndə, sözə müqəddəs ocağın daşı kimi baş qoyanda qətiyyən düşünmür ki, söz onu bu pərəstişlərinin müqabilində hansısa mükafata urcah edəcək. Sözün önündə səmimi təmənnasızlıq sözün diqqətindən kənarda deyil, söz onu Füzulisayaq desək, qədərincə əzizləyəcək. Artıq yuxarıda bir balaca işarə vurmuşdum. Ağacəfər hay-küylü şair deyil. Daxili aləmində nə qədər qanlı savaşlar getsə də, bu savaşların ahları, harayları kimi üzə çıxan sözü sakit axan çayın pıçıltıları kimi üzə çıxır. Təbiətinin qavradığı mühitdə onun sözü klassik musiqini - sinfoniyanı daha çox xatırladır.*

*Muğamla sinfonik musiqini birləşdirmək az olmayıb. Belə cəhdlərin əvvəlində hətta mütəxəssiz dinləyicilər də onun uğursuzluğu haqqında düşüncədə qəti olduqlarını deyirdilər. Zaman keçdikcə cəmiyyətin düşüncə ölçüləri öz inkişafı ilə, səsin möcüzələri ilə qarşılaşmalı olurlar".* Ağacəfər Həsənli onsuz da şeirlərində yaradıcılıq üslubunu sanki sinfonik musiqi təriqində yaradır. Ona görə də oxucu onun şeirindən ayrıla bilmir. Hətta şeirin misralarını ürəyində oxusa belə, ona elə gəlir ki, o səsi dinləyir. Elə bu səbəbdən də Ağacəfərin şeirlərindən ayrılmır. Ağacəfərin şeirlərinin musiqisi Ə.Xələflinin dediyi kimi oxucunu axıracan öz arxasınca çəkib aparır. Ağacəfər Həsənlinin bir neçə kitabını çap etmişəm. O, kitablarının üstündə müəllif şəkli təqdim etmir. Hələ bu barədə onun özündən də soruşmaq istəmişəm. Amma bunun səbəbini, "nə üçün şəklini təqdim etmirsən?" sualının cavabını elə "Şərhin poetik notları"nda verilmiş Ağacəfər öz şeirindən öyrəndim:

Şəklimi vermirəm
kitabımın üstündə.
Birdən şəklimdən oxuyacaqlar
şeirimi.
Məni məndən oxumaq daha asandı,
nəinki sözlərimi...

Məni heca-heca,
höccələyə-höccələyə
oxumaq mümkün deyil.
Məni bütöv oxumaq mümkündü -
tərəzi gözlərimin rəngindən,
sözlərimin pərsəngindən...
qafiyəsindən, vəznindən..

Hər şey məlumdur. Şairin özü demiş, elə onun yazdıqları şəklidir. O öz şəklini şeirinin həzin axarında, söz sırasında verə bilir. Şeirdə onun şəklini görmək üçün oxucu heç bir çətinlik çəkmir.

Maraqlıdır ki, onun şəkillə bağlı poetik düşüncələrini Əli Rza Xələfli ədəbi-publisistik yönümdə çox həssaslıqla sözə gətirir: *"Şair kitabının üstündə vermədiyi şəklin əvəzində danışır. Sanki qeyriləri yox, elə şəklinin özü ondan incik düşüb. Səbəbini soruşur: axı nə üçün müəllif şəklini kitabının üzərində vermirsən? Və şair bunu özünəxas bir tərzdə, bir qədər təkrar kimi çıxsa da, təzədən oxucu diqqətinə çəkirik. Bəzən sözü bir tərəfə qoyub şəklə baxırıq, şəkillə danışmaq istəyirik. Müəllifin fəlsəfi-psixoloji düşüncəsinə görə şəkillə danışmaq oxucu üçün çox asandır. Çünki orada tərəzi gözlər var, sözün pərsəngi var, nə bilim, daha nələr var... Amma sözün özünü oxumaq, sözün özünü oxuduqca ondan gələn ağrıların və ağırlıqların cəfasına dözmək var".* Zənnimcə, Xələflinin bu şərhləri təkcə dərin məna qatlarına varmaqla yox, həm də Ağacəfərin şeirlərinin özü qədər poetik axarı ilə də diqqəti cəlb edir.

Ağacəfər Həsənli dövrünə, zamanına münasibət bildirə bilən şairdir. Özü də zamana münasibətində heç bir qarşılaşmaya getmir. Başqa sözlə, canlı dildə deyildiyi kimi əks mövqelərin sahibləri ilə cırmaqlaşmır. Amma məramından da geri dönmür. Ustalıqla məramına doğru yaradıcılıq səngərində inadla dayanır. Onun dəyərli söz sahibi kimi Əli Rza Xələflinin təhlillərində yer alması da mövqe aydınlığından irəli gəlir. Yəni tənqidçi, söz sərrafı şairi öz varlığının doğması bildiyindən onun dedikl ərini də özü yazısına gətirir: *"Söz A.Həsənlinin köhlənidir. Şimşək itiliyilə şığıyan, düşüncələrin qılıcından keçən ay kimi işğına çağıran cazibə mərkəzidir. A.Həsənlidə söz Füzulinin özüdür. Ona görə də sözü şəkildən uca tutur. Axı Allahın da şəkli yoxdur. Gerisi oxucunun özünə də məlumdur. Ağacəfərin sözünü söz eləyən ən sərrast obrazlarından biri də QANdır. "Qan" adlı poetik essesinə (şair bu əsəri "Ruhun kölgəsi") adlandırır və öz kitabında həmin əsəri lirik-fəlsəfi parçalarla poema kimi təqdim edir. Etiraza yer yoxdur. Çünki hər parçanın özündə arası kəsilməyən düşüncə axarının gözü (ruhu) tutub saxlayan gücü var. Bu güc damardan keçib ürək matoru ilə beynə vurulan düşüncəni hərəkətə gətirən enerjidir".* Doğru qənaətlərdir. Ağacəfərin orijinal obrazlarının arxasında nələrin dayandığına oxucunun yetməsi üçün Ə.Xələfli sanki projektor işığı ilə şairin duyğular aləminin əks-sədası olan sözlərinin məna qatlarına işıq salır.

Ağacəfəri ayrı-ayrı tədbirlərdə müşahidə eləmişəm. Onun televiziya çıxışlarına diqqətlə qulaq asmışam. İstər həyat və cəmiyyət haqqında publisist düşüncələrində, istərsə də, ən emosional şeirlərini oxuyanda o çox sakit görünür. Sanki daxilində heç bir həyəcan yoxdur. Amma əslində heç də belə deyil. A.Cəfərli poeziyasında kifayət qədər emosionaldır, duyğulanmaları ilə öz ətrafında cazibə yarada bilir. Bununla da diqqəti özünə çəkir. Ağacəfər Həsənlinin yaradıcılığı ilə təbiəti arasında kəskin təzad görmürəm. O sanki şeirində ifadə etmədiyini düşüncələri ilə oxucuya çatdırır. Bu düşüncələri o asta-asta da ifadə edə bilər, hətta şeirini oxuyandan sonra susmağı, sakit-sakit ətrafı müşahidə etməyi ilə də. Əli Rza Xələfli onun təbiətinin bu cəhətini özünəxas qanadlı publisistikası ilə belə verir: *"Hərdən mənə elə gəlir ki, dünya-aləm baş-ayaq olsa, yenə Ağacəfərin təmkin-tövrünü pozmağa gücü çatmaz. Bu çarxı çevrilən dünyanın əhvalına baxıb necə təhər-tövrünü pozmamaq olar? Bunun ancaq bircə səbəbi var: Şair mənəvi mühitinin görünməyən tərəfində, özünün şairlik aləmində o savaşdan kənarda deyil, o gücdən kənarda deyil. Bütün varlığı ilə qanla dolu olan zamanın və məkanın içində olduğu üçün çarxı çevrilmiş dünyanın harayı onun tövrünü poza bilmir. Əgər mənim içimdə dünya təlatümdədirsə, zahirən fırtınaya çevrilmiş olan aləm məni necə saxlaya bilər?".* Yaxşıdır, ümumiyyətlə, şair aləmdən nüfuz etmək baxımından Əli Rza Xələflinin publisistik düşüncələri özünün qanadlı ruhu ilə həmişə oxucunu səfərbər edə bilir. Əli Rza təbiət etibarı ilə Ağacəfər Həsənlidən fərqli olaraq çıxışlarında çox emosionaldır. Fikirləri obrazlı ifadə etmək baxımından da fərqlənir. Ona görə də mən Ə.Xələflinin qeydlərini sanki A.Həsənlinin şeirlərinin davamı kimi oxuyuram, mənə çox xoş gəlir.

*(Davamı 11-ci səhifədə)*

# AĞACƏFƏR "ŞƏRHİN POETİK NOTLARI"NDA

**(Əvvəli 10-cu səhifədə)**

Şairlərin öncəgörməsi haqqında çox deyirlər. Ə.Xələflinin şərhlərində A.-Həsənlinin zamanı qabaqlayan düşüncələrinə də işıq tutulur. Ümumiyyətlə, ruhun, insanın enerjisinin damarlarda çağlayan qanla nə qədər bağlı olduğu Ağacəfərin şeirlərindən aydın görünür və bunu da Ə.Xələfli çox dəqiq tutur və kifayət qədər maraqlı ifadə edir: *"Qanı ruh kimi qavrayan klassiklərin təlimini şair sözə gətirməklə onun həyati çalarlarını ideolizə edir. Deməli, şairin düşüncəsində qan təkcə ölüm deyil, bir körpənin anasının üzünə baxıb gülməsi, bir ananın oğul boyuna baxıb sevinməsi, bir atanın qələbə xəbərinə qürurlanmasıdır".* Xələfli qanı belə qeyri-adi dərəcədə xarakterizə edərkən, şübhəsiz, şairin yazdıqlarına əsaslanır. Deməli, o da müəlliflə razılaşır ki, bir ananın qucağındakı körpə özünü nə qədər təhlükəsiz, məmnun hesab edirsə, ana da bir o dərəcədə məmnundur. Bu da təsadüfi deyil, qan birliyinin təsadüfüdür. Ananın damarlarında hərəkət edən qan körpənin ürəyini yaşadan qanın əzəlidir. Başqa sözlə, körpənin qanı ananın qanının davamıdır. Xələfli A.Həsənlinin qana münasibətinə sanki heyranlıqla rəng verir: *"Görün Ağacəfər Həsənli qanın diriliyini necə orijinal təqdim edir:*

*Torpağı sulasan, çiçək bitər,*
*torpağa qan töksən, insan...*
*Çünki qan - Ruhdu,*
*qan-sübhdü.*
*Gündüz ətə-qana dolur,*
*ot solur,*
*İnsan açılır.*

Şair "insan açılır" ifadəsi ilə azda təbiətin üzə gülən vaxtında qönçədən çıxan, şairin təbirincə desək, açılan gülü təsəvvürümüzdə canlandırırıq.

"İnsan açılır"... İnsan o vaxt açılır ki, onun yaşamaq üçün, həyat üçün imkanları olur. Bir az da irəli getsək, deməliyik ki, insanın özünü ifadə imkanları açılmış olur. İnsanın həyatına yaranan şərait onun mənəvi mühitindən boy atmış, bitmiş duyğularının başqa sözlə, arzu və istəklərinin reallaşmasını təmin edir.

Ə.Xələfli Ağacəfərin şeirindən aldığı təəssüratı daxili aləminin rənglərini ifadə edən sözlərlə zühura gətirir, özü də maraqlı müqayisələrlə. Əkilən torpaq, açılan gül, saf çiçəklər, təbiətin gözəlliyi, bir sözlə, sözü dildə qanadlandıran bütün duyğuları publisistikanın ilhamlı nəğməsi kimi oxuyuruq: *"Sulanmış torpaqdan bitən çiçəklə tökülən qandan düşüncəsi ilə göyərib bitmiş insan nə qədər birbirinə bənzəyir. Çiçək safdır, zərifdir, təbiətin gözəlidir. Gözü sevindirən gözəllikdir. Qanından göyərib bitən insan yenidir, təzədir, günahsızdır. Sübhün özü kimi aydındır, dan üzü qədər cəlbedicidir. Çünki onun qanın içindən çıxmaqla addım atdığı yer ətə-qana dolmuş gündüzün işığında insana gəl-gəl deyir. Fəsillər dəyişəndə çölçəmən solsa da, yeni, günahsız həqiqətin içindən pərvəriş tapmış insan gül kimi açılmaqdadır. Özgə vaxt konkret olaraq bir döyüş səhnəsi haqqında müəyyən mövzunu bitkin əhatə dairəsində düşüncəmizdən keçirib yaza bilərik. Ancaq şairin qanla bağlı fəlsəfi düşüncələri fikir və xəyallarımızın sərhədlərini dağıdır, düşüncə axarı sürət götürür və söz yuyulmuş parlaqlığı ilə üzə çıxmış kristallar kimi görünür".* Bəzən olur ki, insan öz ətalətində dayanmalı olur. Sanki ətrafında baş verənlər onu maraqlandırmır. Elə bil ki, dəyişən mənzərələrin hamısını eyni rəngdə görür. Donuq gözlərlə vaxtın axarını seyr edir. Ancaq cəmiyyətdə baş verən hadisələrin elə bir bənzərsiz məqamı insanın ruhuna təsir edir ki, bütün durğunluğu yaradan mühit bir anda dağılıb gedir. İnsan sanki həyata yenidən gəlir. Hər şey onun üçün maraqlı olur. Göy qurşağının rənglərini müxtəlif çalarlarda gördüyü kimi, təbiəti də bütün əlvanlığı ilə seyr edə bilir, duya bilir.

Elə bilirəm ki, A.Həsənli qanla bağlı əsərini yaradarkən bu hissləri keçirib. Varlığında qanın təkcə rəngini yox, həm də mahiyyətini görə bilib. O, qanı çiçək kimi görürsə, elə bunun özü də onun ritorik suallarında mənanı açıq göstərə bilir. A.Həsənli öz şeirlərində çox vaxt ritorik suallardan istifadə edir. Cavabını isə oxucunun öz ixtiyarına buraxır. Çünki cavab onun şeirlərinin içərisindən "mən burdayam", - deyir:

Qan - çiçəkdi,
qanın çiçək-çiçək
açdığını görmüsünüzmü?
Qanın acıq çıxdığını
görmüsünüzmü?
Qanın su yerinə axdığını,
torpağa xına yaxdığını
və ya Qırmızı dənizdən qalxıb
göydən yağdığını
görmüsünüzmü?
Qan-vaxtdı, qan bəxtdi.
Gah gülümsəyir üzünə,
gah da ki, qara gətirir.
Qanın qara vaxtında
üzünü görmə,
bəxtin qara vaxtında
dərdin üzünü köçürmə,
çünki qara vaxtında
qan bar gətirmir.

Kimin ağlına gələ bilər ki, qanı vaxt hesab edəsən, qanı bağ kimi düşünüb könlünün açılan bir zamanında onun üzünə baxıb gülümsəyəsən. Amma Ağacəfər bu mənalandırmaları o qədər dəqiqliklə aparır ki, biz özümüz də qanı vaxt kimi, bağ kimi dərk etməli oluruq. Qan o qədər canlıdır ki, onun qara vaxtında sanki təbiət hərəkətdən qalır, zaman timsalında yeni fəsil gəlmir. Şair də bunu qara qanın bar gətirməməsi kimi xarakterizə etməkdə haqlı olur.

Ə.Xələfli bütün bunları çox diqqətlə izləyir və sözün həqiqi mənasında oxucunun düşüncəsini qanadlandıracaq, onun ruhunu vəcdə gətirəcək tərzdə qiymətləndirir, dəyərləndirir: *"Əgər belə demək mümkünsə, şair qanla bağlı düşüncələrini bu parçada ümumiləşdirib. Qanın vaxt kimi xarakterizə olunması vaxta verilən yeni çalardır. Eləcə də qanın özündə vaxtı görmək qana əbədiyyət məzmunu gətirməkdir. Əgər qanda vaxt hakimliyi, əbədiyyət məzmunu olmasaydı, onda qanla yazılmış tarixi həqiqətlər çoxdan yaddan çıxıb gedərdi. Beləliklə, şairin qanla bağlı düşüncələri fəlsəfi bir traktat kimi zaman-zaman oxunacaq və yaddan çıxmayacaq".* Əli Rza Xələfli Ağacəfər Həsənlinin *"Ruhun kölgəsi"* əsərini birər-birər təhlil edir. Sanki şairin hər bir misrası ilə həmahəng addımlayır. Onunla birgə zamanlar keçir. Tarixin ən qanlı çağlarında baş verən hadisələrin mahiyyətinə varır.

Ağacəfər Həsənli üçün tarix təkcə olub-keçmiş olanlar deyil. Həm də elə yaşanan zamandır. Və hətta bizə tərəf gələn zamanın özü də elə tarixdir. Əgər belə olmasaydı, heç A.Həsənli ruhun kölgəsi haqqında da danışa bilməzdi. Şübhəsiz, şairin xəyalı sərhədsizdir. Onun düşüncə məkanı, fikir sərhədləri mərkəzləşmə baxımından özü ilə hüdudlanır. Amma əhatə dairəsinə görə xaosdan kosmosa qədər nə varsa hamısı şairin düşüncələrində özünə yer tapır. "Ruhun kölgəsi" poeması ilə bağlı Xələflinin qənaətləri oxucu üçün istinad nöqtəsinə çevrilir. O, bu qənaətlər əsasında ruhun kölgəsində nə görünürsə, onun hamısını sözə gətirir, fəqət sıxılmış sözə. Məna zənginliyi ilə oxucunun varlığını qidalandıran sözə.

Xələflinin həm "Ruhun kölgəsi" əsəri ilə bağlı qeydləri, həm də Ağacəfər Həsənlinin əsərindən gətirilmiş bir parça ilə ruh və qan anlamı haqqında düşüncələrimi oxucularıma çatdırmaq istərdim: *"Şairin "Ruhun kölgəsi" adlandırdığı bu əsərdə qana önəm verdiyi kimi, qanın ruh kimi qavranılmasına da yol açır. Və şair özü deyir ki, mən insanı ruhun kölgəsi kimi görürəm. Görünür, şair ruhu qanı hərəkətə gətirən güc kimi görür və zənnimcə, düz görür. Şair bu əsərində qoyduğu problemləri cəmiyyət üçün açıqlayır. Ancaq əsərin sonluğunda zaman, dünya, tarix düşüncələrini yazır ki, bu da onun əsər boyu müəmmalar şəklində görünən suallara cavabı kimi başa düşülə bilər. Son parçalarda müəllif qanın yaratdığı tarixi xarakterizə edir".* Xələflinin bu qeydlərindən sonra Ağacəfərin "Ruhun kölgəsi" poemasının tarixlə müqayisəyə çəkilən məqamlarını diqqətlə oxuyuram. Şeirin gətirdiyi əhval düşüncəmi haralara çəkmir.

Millətlərin qan təmizliyi məsələsi həmişə mübahisə obyekti olub. Özünü ari irq adlandıranların taleyi bəllidir. Onlar həmişə qisasçılıq hissilə yaşayırlar. Amma hər halda xalqlar birləşmə və ayrılma məqamlarında öz dillərini, mənəvi bütövlüklərini qorumaqla zamanla, tarixlə savaşdan salamat çıxa bilərlər:

Tarixin dar küçəsində
hər şey əyri, dolaşıq.
Millətlərin halal qanı,
yad qanlarla bulaşıq.

Tarixin alt qatları-
Alp, Himalay ucalığı.
Zamanın üst qatları-
müdrikliyin qocalığı...

Hər doğulan uşaqla
körpə uşaqdır tarix.
Saxta tərif istəmir,
nurdur, işıqdır tarix.

Hövsələsi gendi, gen,
səbri, Zaman səbridir.
Tarix hər kəsin evi,
hər kəsin də qəbridir.

Bu şeirdə tarixin, ədəbiyyatın həmişə möhtəşəm obrazları kimi xarakterizə olunan dağların obrazına rast gəlirik. Milyon illər ötüb keçir, amma əzəmətli dağlar yenə öz görkəmini qoruyub saxlayır. Elə bilirəm ki, A.Həsənli də tarix obrazı ilə dağ obrazlarını qovuşdurarkən qlobal düşüncə imkanlarını da reallaşdıra bilir. Amma şeirin sonunda maraqlı bir fikir deyir: "Tarix hər kəsin evi olduğu kimi, həm də qəbridir". Qəbirdə də rahat uyumaq üçün gərək yaşadığın tarixi həyatının mənası ilə bəzəyəsən.

Xələfli də görünür, elə bu düşüncələrə doğru qənaətlə nəticə vurur: *"Bu əsər Ağacəfərin həyatı fəlsəfi dərkinin təsdiqidir. Onun filosof-şair kimi qəbul edilməsinin mübahisəsizliyinə sübutdur. Ağacəfər "Ruhun kölgəsi" adlandırdığı məzmunca "Qan" epopeyası adlandıracağımız bu əsəri ilə ədəbiyyatla, fəlsəfəni birləşdirməyin, qovuşdurmağın ən yaxşı nümunəsini yaradırdı".* Düşünürəm ki, Ə.Xələfli A.Həsənlinin bu əsərini ("Ruhun kölgəsi") "Qan epopeyası" adlandırmaqda səhv etmir. Çünki qan obrazı bütöv bir xalqın tarixdən gələn taleyini ehtiva edir. İstər-istəməz bizi düşündürür. Necə yaşadığımız, keçmişin hansı dəyərlər üzərindən keçib getdiyini, gələcəyin hansı dəyərlər üzərində bərqərar olacağı bizi düşünməyə vadar edir.




A.Həsənlinin zəngin yaradıcılığı müxtəlif kitablarında əks olunub. Mənə elə gəlir ki, Xələfli də onun çap olunmuş kitablarını diqqətlə nəzərdən keçirib. Dünya görüşünə, ədəbi zövqünə yaxın olan əsərləri seçib təhlilə gətirib. Həm də elə bir şəkildə təhlilə gətirib ki, bu təhlillərin özü də elə bədii əsərlər qədər bizə zövq verir, bizi düşünməyə vadar edir.

"Şərhin poetik notları"nda Ə.Xələfli müasirimiz olan görkəmli şair A.Həsənlinin mənəvi mühiti haqqında düşüncələrini çox dəyərli ədəbi-fəlsəfi esse parçası ilə yekunlaşdırır. Oxucular üçün də maraqlı olar: *"O, fəlsəfəni ədəbiyyata tərəf gətirmir. Poeziyanı ədəbi düşüncənin zirvəsinə qaldırır və həyatı fəlsəfi dərklə qovuşdura bilir. Ağacəfər Həsənlinin əsərləri yüksək obrazlılıq nümunəsi kimi sözün ifadə imkanlarını sözün içində sıxılmış enerjini görmək istəyən və buna gücü çatan söz xiridarlarının həmişə diqqətində olacaq. Və nəhayət, görünür, söz, həm də qandır... Və görünür, söz həqiqətdir, söz cəsurluğun simfoniyasıdır, söz yağmur əlifbasıdır. ...Və söz şairin özüdür".* Ə.Xələfli A.Həsənli haqqında bu qeydləri 01.12.2020-ci ildə yazıb. Amma yazı şərh imkanlarına və ehtiva etdiyi mənaya görə bu gün də bizə təzə görünür. Yəqin ki, illər ötəndən sonra da belə olacaq. Kimki sözə önəm verir, söz də onu ucaldır.

Ə.Xələfli doğru deyir: Söz şairin özüdür.

***22.09.2022***